*Azərbaycan xalqının XX əsrdə yetirdiyi ən böyük şəxsiyyətlərdən biri olan filosof-şair və istedadlı dramaturq Hüseyn Cavid bu ilin oktyabr ayında 125 yaşa dolur. Hələ sağlığında öz orijinal sənət yolu ilə milli ədəbi-ictimai fikrin diqqətini öz yaradıcılığına çəkmiş Cavid irsi, günahsız yerə repressiya olunduqdan sonra bir müddət yasaq mövzuya çevrilsə də, əsl vətənpərvər ziyalıların xatirindən bir an da çıxmamış, yeri gəldikcə şifahi şəkildə olsa da təbliğ edilmişdir.*

*Bütün böyük klassiklər kimi, Hüseyn Cavid də zamanın sınağından alnıaçıq çıxaraq layiq olduğu bəraəti almış və xalqın xoşbəxt gələcəyi uğrunda mübarizədə öz rolunu və funksiyasını layiqincə yerinə yetirməyə başlamışdır.*

*Xalqımızın bir çox klassik sənətkarı kimi, Hüseyn Cavid irsinin və sənətkar şəxsiyyətinin də əsl qiymətini Azərbaycan xalqının böyük oğlu, ümummilli liderimiz, sözün-sənətin böyük bilicisi və hamisi Heydər Əliyev vermiş, onun istər cismən, istərsə də mənən vətəninə, xalqına qaytarılmasında müstəsna rol oynamışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə şairin ev-muzeyi yaradılaraq fəaliyyətə başlamış, doğma vətəni Naxçıvanda möhtəşəm məqbərəsi ucaldılmışdır.*

**Gülbəniz BABAXANLI,**
**AMEA Hüseyn Cavidin ev-muzeyinin direktoru,**
**filologiya elmləri namizədi**



# CAVİD İRSİ

## *Ona maraq durmadan artır*

Heydər Əliyev ideyalarının və işlərinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər sahədə olduğu kimi, Cavid irsinin nəşri, təbliği və öyrənilməsi sahəsində də ümummilli liderimizin başladığı işləri davam etdirir. Bu baxımdan Hüseyn Cavidin 125 illik yubileyinin yüksək səviyyədə keçirilməsi haqqında ölkə prezidentinin imzaladığı sərəncam ədəbi-mədəni irsimizin necə yüksək qiymətləndirilməsi haqqında əyani təsəvvür oyadır.

Bu ali dövlət sənədi Azərbaycanın bütün ziyalıları kimi, Azərbaycan Milli Elmlər Akademiyası Hüseyn Cavidin Ev Muzeyinin kollektivi üzərinə də məsul vəzifələr qoymuşdur. Bütün respublikada Cavid irsinin vurğunları üçün bir növ qeyri-rəsmi əlaqələndirmə mərkəzi kimi çıxış edən muzeydə son illər böyük şair və dramaturqun ədəbi-bədii irsinin nəşri, təbliği və araşdırılması üzrə bir çox işlər görülmüşdür ki, bütün bunlar barədə respublikanın kütləvi informasiya vasitələrində kifayət qədər məlumat verildiyindən bir daha sadalamağa lüzum görmürük.

Hüseyn Cavidin 125 illik yubileyinin keçirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin verdiyi sərəncamdan sonra muzeydə yeni bir canlanma müşahidə olunmuş və əməkdaşlar öz üzərlərinə düşən vəzifələri daha böyük entuziazmla gerçəkləşdirməyə başlamışlar. Görülən işlər sırasında əsasən aşağıdakıları qeyd etmək istərdik:

Azərbaycan dilində latın qrafikası ilə Respublika Prezidentinin sərəncamı ilə Hüseyn Cavidin



təkcə respublika cavidşünaslarından deyil, həm də Türkiyə, Almaniya, İran, İraq və başqa ölkələrdən Cavid yaradıcılığının tədqiqinə həsr edilmiş elmi məqalələr alınmışdır və məruzələrin mətnini əhatə edən toplu hazırda redaktə prosesindədir.

külliyyatı kütləvi tirajla nəşr edilsə də, sevimli şairin əsərlərini stolüstü kitab etmək istəyən minlərlə oxucunun arzusunu nəzərə alaraq beşcildliyin təkmilləşdirilmiş ikinci nəşri hazırlanmışdır. Bununla yanaşı, Cavid irsini başqa ölkələrdə tanıtdırmaq üçün bədii tərcümənin müstəsna əhəmiyyəti nəzərə alınmaqla, böyük Azərbaycan şairinin Avropa dillərinə tərcümə edilməsinin ilk təşəbbüslərindən biri kimi, Cavid poeziyasından seçmələr fransız dilinə çevrilmişdir.



Ev muzeyinin toplama, tərtib və nəşr işlərindən olan "Cavidşünaslıq" toplusunun növbəti cildləri üzərində işlərin başa çatması da yubiley ərəfəsində həyata keçirilən mühüm tədbirlərdən biri kimi qiymətləndirilməlidir.

Hüseyn Cavid filosof-sənətkar olduğundan, onun bir çox kəlamları aforistik çalara malikdir. Məhz bunu nəzərə alaraq, muzeydə Cavidin hikmətli sözlərindən ibarət toplu hazırlanmış və çapa təqdim edilmişdir.

Nəşr işləri ilə yanaşı, yubileylə bağlı keçiriləcək beynəlxalq Cavid elmi konfransına da ciddi hazırlıq işləri görülməkdədir. Göndərdiyimiz dəvətnamələr əsasında artıq

Konfransın keçirilməsində qarşıya qoyduğumuz məqsədlərdən biri də bu tədbirdə Beynəlxalq Muzeylər Şurası nümayəndələrinin bu tədbirdə iştirakını təmin etməkdir. Hüseyn Cavidin Ev Muzeyi həmin Şuranın tamhüquqlu üzvü kimi bu qurumla yüksək səviyyədə formalaşmış elmi-mədəni əlaqələrə söykənməklə belə bir təkliflə çıxış edib. Zənnimizcə, Cavid irsinin Avropada və dünyanın başqa ölkələrində təbliği üçün Şura ilə əməkdaşlıq mühüm rol oynayacaqdır.



Yubiley ərəfəsində muzeyin rəsmi saytında fəaliyyət göstərən virtual muzeyin şəbəkəsini daha da genişləndirmək və bununla da Cavid irsinin qlobal səviyyədə təbliğini gücləndirmək fikrindəyik.

Qeyd edim ki, artıq indiyədək Hüseyn Cavidin Ev Muzeyinin rəsmi internet səhifəsinə (www.huseyncavid.com) dünyanın 40-a yaxın ölkəsindən; o sıradan ABŞ, Fransa, Türkiyə, Rusiya, İtaliya, Almaniya və başqa ölkələrdən 21 minə qədər istifadəçi daxil olmuşdur. Bu isə özlüyündə Cavid irsinə bütün dünyada marağın nə qədər güclü olduğundan xəbər verir.

Onu da razılıq hissi ilə qeyd etmək istərdik ki, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Mahmud Kərimov başda olmaqla, Akademiya rəhbərliyi Sərəncamdan irəli gələn vəzifələrin həyata keçirilməsi ilə yaxından maraqlanır və əlindən gələn köməyi əsirgəmir. Bu isə görüləcək işlərin uğurla başa çatacağını söyləməyə tam əsas verir.